# Mehriban Əliyevadan növbəti humanist addım

19.04.14 11:23



Aprelin 17-də ATV telekanalında göstərilən və təcili ürək əməliyyatına ehtiyacı olan balaca Ömər Qasımovun müalicə xərclərini Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu öz üzərinə götürüb.

Dalgatv AzərTAc-a istinadən xəbər verir ki, bu barədə məlumatı Milli Məclisin deputatı Qənirə Paşayeva özünün "Facebook" səhifəsində paylaşıb.

Məlumatda deyilir: "Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti çox hörmətli Mehriban xanıma təşəkkür edirik. Bir az əvvəl ürək qüsurundan əziyyət çəkən və təcili əməliyyata ehtiyacı olan 2 yaş 6 aylıq Ömər Qasımovun anası zəng edərək bildirib ki, Mehriban xanımın adından onu Bakıya dəvət ediblər. Ömərin bütün əməliyyat və müalicə xərclərini Mehriban xanımın tapşırığı ilə Heydər Əliyev Fondu öz üzərinə götürür. İnşallah Ömər də Mehriban xanımın diqqəti və qayğısı ilə yenidən şəfa tapacaq, ailəsi və millətimiz üçün layiqli övlad olacaq".